Məktəbli ensiklopediyası

# Heyvanlar aləmi



Kitab Qanun Nəşriyyatı redaksiya
heyəti tərəfindən çapa hazırlanıb.

**HEYVANLAR ALƏMİ**
Bakı, Qanun Nəşriyyatı, 2024, 32 səh.

Yaş qrupu: 8-12
Ölçü: 165x235 mm
Cild: qalın
Çapa imzalandı: 07.05.2024

| | |
|---|---|
| Korrektor: | Elsevər Muradov |
| Texniki redaktor: | Aydın Səlimli |
| Mətn dizaynı: | Günay Seyidli |
| Qapaq dizaynı: | Rafael Qasım |

Qanun Nəşriyyatı
İstanbul Copyright Awards-ın qalibi
Bakı, AZ 1102, Tbilisi pros., 76
Tel: (+994 12) 431-16-62; 431-38-18
Mobil: (+994 55) 212-42-37
e-mail: info@qanun.az
www.qanun.az
www.fb.com/Qanunpublishing
www.instagram.com/Qanunpublishing

ISBN 978-9952-38-938-8

© Qanun Nəşriyyatı, 2024

# *Mündəricat*




4 Heyvan nədir?
5 Mərcanlar heyvanlar aləminə aiddirmi?
6 Soxulcanların nə xeyri var?
7 Buğumayaqlılar nədir?
8 Niyə qarışqaları əməksevər sayırlar?
9 Arılar necə yaşayır?
10 Hörümçəklər təhlükəlidirmi?
11 Əqrəbin zəhəri hardadır?
12 İpəyi nədən əldə edirlər?
13 Balıqlar niyə suda yaşayır?
14 Balıqlar quruda nəfəs ala bilərmi?
15 Hansı balıqlar insan üçün daha təhlükəlidir?
16 Dünyada ən böyük balıq hansıdır?
16 Dəniz atı nədir?
17 Suda-quruda yaşayanlar nədir?
18 Quru qurbağası ilə adi qurbağa arasındakı fərq nədir?
18 Qurbağalar nə ilə qidalanır?
19 Dinozavr nədir?
20 Dinozavrlar niyə yoxa çıxıb?
21 İndi dinozavrlara bənzəyən heyvanlar varmı?
21 Kərtənkələlər nə ilə qidalanır?
22 İlanlar təhlükəlidirmi?
23 Dünyada ən böyük ilan hansıdır?
24 Tısbağalar çoxmu yaşayır?
25 Niyə buqələmun öz rəngini dəyişir?
26 Quşlar nədir?
27 Quşların hamısı uça bilirmi?
27 Quşlar necə çoxalırlar?
28 Niyə bayquşlar gecə ova çıxır?
28 Pinqvinlər harada yaşayır?
29 Hansı heyvan daha bərk qaçır?
29 Hansı məməlilər soyuğa daha davamlıdır?
30 Ən böyük məməli harada yaşayır?
30 Hansı heyvanlar öz balalarını kisədə gəzdirir?
31 Quruda yaşayan məməlilərin ən böyüyü hansıdır?
32 Hansı heyvanları biz “ev heyvanları” adlandırırıq?

# Heyvan nədir?

Söz yox ki, it, pişik, şir və dəvəquşunun heyvan olduğunu hamı bilir. Ancaq söhbət ən sadə canlı orqanizmlərdən gedəndə hərdən onların heyvan və ya bitkiyə aid olmalarını birbaşa demək çətindir.

Alimlər heyvanları başqa canlı orqanizmlərdən ayırmaq üçün beş şərt göstərirlər:

- Bu, çoxhüceyrəli orqanizmdir, yəni onların tərkibi bir hüceyrədən ibarət deyil;
- Onlar **geterotrof** qaydada, yəni başqa canlı orqanizmlərlə – bitkilərlə və ya heyvanlarla qidalanırlar;
- Onlar sərbəst **hərəkət** edə bilirlər;
- Onlar **hiss üzvlərinə** malikdir: istini, işığı, səsi və s. hiss edə bilirlər.
- Onların çoxalması **iki cinsin –** erkək və dişinin birgə iştirakı ilə baş tutur, ancaq bəzi növlərdə hər iki cinsin xüsusiyyətləri var və onlar sərbəst arta bilirlər.



# *Mərcanlar heyvanlar aləminə aiddirmi?*

Mərcanlar dənizdə yaşayır, onlar hərəkətsizdir və görünüşündən bitki qanadını xatırladır, ancaq bitki deyil. Mərcanın qanadları kiçik heyvanların – **mərcan poliplərinin** yığnağından yaranmışdır. Bu cür toplantı **koloniya** adlanır. Hər bir polip öz ətrafında əhəngdən qabıq yaradır. Yeni polip doğulan zaman əvvəlkinə yapışır və öz ətrafında yeni qabıq qurmağa başlayır – beləliklə, mərcan "böyüyür". Mərcanların böyük toplantısı suyun səthində görünən və **sualtı mərcan qayalıqları** adlanan həqiqi adalar əmələ gətirir.



**Qırmızı mərcan**

Belə adaların ən çox yığıldığı yer Avstraliya sahillərində Böyük Çəpər Qayalığıdır.

Hərdən mərcanlar çox gözəl və rəngbərəng olur. Qırmızı və qara mərcanlardan bəzək əşyaları da düzəldirlər.